Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-5480/2022 23.09.2022

**ALİ MƏHKƏMƏ**

**QƏRARDAD**

(kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi haqqında)

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimləri Əliyev Zaur Əli oğlu (məruzəçi), Xələfov İlqar Rəhim oğlu və Hüseynov Abiddin Qabil oğlundan ibarət tərkibdə,

Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-3378/2022 nömrəli, 04 may 2022-ci il tarixli qətnaməsindən Cavabdeh tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək,

**müəyyən etdi:**

Cavabdeh (Vəkil tərəfindən tərtib edilmiş) Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-3378/2022 nömrəli, 04 may 2022-ci il tarixli qətnaməsindən kassasiya şikayəti vermişdir.

Kollegiya aşağıdakılara əsasən hesab edir ki, kassasiya şikayəti Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin tələblərinə cavab vermədiyindən qeyri-mümkün hesab edilməlidir.

Belə ki, Mülki-Prosessual Məcəllənin 407.4-cü maddəsinə görə, kassasiya şikayətinə vəkilin orderi və dövlət rüsumunun ödənilməsini sübut edən sənəd əlavə olunur.

Cavabdeh kassasiya şikayətinə dövlət rüsumunun ödənilməsi barədə sübut əlavə edilməmişdir.

MPM-nin 404-1.2-ci maddəsinə görə, işə kassasiya qaydasında baxmaq üçün prosessual əsaslar olmadıqda kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsinə dair qərardad qəbul edilir.

MPM-nin 408.1.3-cü maddəsinə görə, kassasiya şikayətinə müəyyən olunmuş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsi barədə sənədlər əlavə edilməmişsə kassasiya şikayəti qaytarılır.

Həmin Məcəllənin 408.2-ci maddəsinə əsasən, bu Məcəllənin 408.1.1. və 408.1.3.-408.1.5-ci maddələrində nəzərdə tutulmuş hallarda kassasiya şikayəti apelyasiya instansiyası məhkəməsi tərəfindən qaytarılır.

Göstərilənlərə əsasən məhkəmə kollegiyası hesab edir ki, kassasiya şikayəti qeyri-mümkün hesab edilməli, şikayət geri qaytarılması üçün mülki işlə birlikdə Bakı Apelyasiya Məhkəməsinə göndərilməlidir.

Göstərilənlərə əsasən MPM-nin 404-1.1, 404-1.2, 407.4, 408.1.1, 408.1.3, 408.1.5, 408.2-ci maddələrini rəhbər tutaraq

**qərara aldı:**

Cavabdeh Bakı Apellyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-3378/2022 nömrəli iş üzrə 04 may 2022-ci il tarixli qətnaməsindən verdiyi kassasiya şikayəti qeyri-mümkün hesab edilsin.

Kassasiya şikayəti geri qaytarılması üçün mülki iş ilə birlikdə Bakı Apellyasiya Məhkəməsinə qaytarılsın.